# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 fevral tarixli 49 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki müəssisələrə işə qəbul Qaydaları"nda dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin müraciətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 fevral tarixli 49 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki müəssisələrə işə qəbul Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bəndə "texniki vəzifələr" sözlərindən sonra "və "Şərur" Xalq Yallı Ansamblının üzvləri" sözləri əlavə edilsin;

1.2. 2-ci hissəyə aşağıdakı məzmunda 2.4-cü və 2.5-ci bəndlər əlavə edilsin:

"2.4. Yaşayış yerinin dəyişdirilməsi, müəssisənin ləğvi, ştatların ixtisarı və s. üzrlü hallarda işçinin müvafiq müəssisədə əvvəlki vəzifəsinə uyğun işlə təmin edilməsi müsabiqədənkənar həyata keçirilə bilər.

2.5. Mövcud vakansiyalar üzrə müsabiqə yolu ilə ixtisaslı kadrlar təyin olunanadək müəssisənin fəaliyyətinin fasiləsizliyini təmin etmək məqsədilə müvafiq ixtisas təhsilli şəxslər qabiliyyət tələb edən vəzifələrə (bədii və

yaradıcı heyət), rəsm qalereyası, muzey və muzey tipli müəssisələrdə isə bələdçi vəzifəsinə müddətli əmək müqaviləsi əsasında müvəqqəti cəlb edilə bilərlər.”.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “15” aprel 2022-ci il

№ 104